**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**

Əlyazması hüququnda

**MAHİRƏ MOLUD QIZI ABDULLAYEVA**

# İBTİDAİ SİNİFLƏRDƏ SİNTAKSİS ELEMENTLƏRİNİN ÖYRƏDİLMƏSİ PROSESİNDƏ İFADƏLİ OXU VƏRDİŞLƏRİNİN İNKİŞAFI YOLLARI

5801.01 - Təhsil və tərbiyənin nəzəriyyəsi və metodikası
(Azərbaycan dilinin tədrisi metodikası)

Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

B A K I - 2013

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Nadir Əziz oğlu Abdullayev**
**pedaqogika üzrə fəlsəfə doktoru, professor**

**Rəsmi opponentlər:** **İbrahim Məhəmməd oğlu Bayramov**
**filologiya üzrə elmlər doktoru, professor**

**Asif Xatabala oğlu Hacıyev**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

**Aparıcı təşkilat :** **Azərbaycan Müəllimlər İnstitutu**
**"Azərbaycan dili və onun tədrisi metodikası" kafedrası**

Müdafiə "_25___"_06__ 2013 -cü il tarixdə saat ____ da Azərbaycan Dövlət Pedaqoji Universitetində fəaliyyət göstərən FD.02.061 Dissertasiya Şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

Ünvan: Az-1000, Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi, 34.

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___"_______________ 2013 –cü ildə göndərilmişdir.

**Dissertasiya şurasının**
**elmi katibi:** **K.R.QULİYEVA**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Müstəqillik yolunda inamla addımlayan respublikamızın təhsil sistemində aparılan məqsədyönlü islahatlar məhz gənc nəsli müasir dövrün bu inkişaf tendensiyasına uyğun formalaşdırmağa yönəlmişdir. Bu mənada Azərbaycan dilinin fəaliyyət dairəsini möhkəmləndirmək və genişləndirmək məqsədi ilə böyük öndərimiz və ümumilli liderimiz Heydər Əliyevin 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında"kı Prezident Fərmanı Azərbaycan dövlət dilinin - Azərbaycan ədəbi dilinin inkişafı və istifadə sahələrinin genişləndirilməsi üçün yeni imkanlar açdı. "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir" – deyən ulu öndərimizin bizə ən böyük tövsiyəsi bu idi ki, "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini – Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir".

Ümumtəhsil məktəblərində tədris olunan fənlərin məzmunca yeniləşməsi, təlim prosesinin daha təkmil forma və üsullarla həyata keçitilməsi zərurəti tamamilə özünü doğruldur. Qabaqcıl dünya təcrübəsindən bəhrələnərək hazırlanmış Kurikulum islahatının 2007-2008-ci tədris ilindən başlayaraq ibtidai məktəbin birinci siniflərində tətbiqindən keçən vaxt müddəti artıq təhsilimizin keyfiyyətcə inkişafı ilə bağlı müəyyən mülahizələr söyləməyə, ümumiləşdirmələr aparmağa imkan verir.

Məlumdur ki, ibtidai məktəb ümumi təhsilin möhkəm təməl üzərində qurulmasını təmin edir və bu ağırlığı daşıyan əsas dayaqlardan biri "Azərbaycan dili" fənni sayılır. Bu fənn vasitəsilə azyaşlı məktəblilər xalqımızın tarixi, mənəviyyatı, ədəbiyyatı, incəsənəti, coğrafiyası, adət-ənənələri, yüksək əxlaqi dəyərləri və s. haqqında sadə biliklər qazanır.

İnteqrativ mahiyyət daşıyan bu fənnin ümumi məqsədi kiçikyaşlı məktəblilərdə düzgün və məntiqi nitq fəaliyyəti, ifadəli oxu bacarıları yaratmaqdan və inkişaf etdirməkdən, onların idrak fəallığını və müstəqilliyini formalaşdırmaqdan ibarətdir. Düzgün, şüurlu, sürətli oxu ilə yanaşı, ifadəli oxu bacarıq və vərdişləri uşaqları ana dili üzrə biliklərə yiyələnməyə və digər fənlərin mənimsənilməsinə hazırlamağa xidmət edir. Lakin təcrübə göstərir ki, ana dili fənni üzrə şagirdlərin əldə etdikləri bilik və bacarıqlar daha çox nəzəri aspektdə olub, çox zaman praktik nitq fəaliyyəti ilə müşayiət olunmur, nəzəri və praktik nitq fəaliyyəti zəif əlaqələndirilir. Ona görə də ibtidai sinif şagirdlərinin həm yazılı, həm də şifahi nitq vərdişləri lazımi tələblərə cavab vermir. Şagirdlər ibtidai siniflərdə dil üzrə müxtəlif

biliklərə, o cümlədən sintaktik anlayışlara yiyələnsələr də, nitqlərini düzgün qurmaqda çətinlik çəkirlər.

Bu onunla bağlıdır ki, ibtidai məktəbin Azərbaycan dili dərslərində sintaksisə aid materialların tədrisi zamanı müəllimlər, adətən, nəzəri anlayışların, tərif və qaydaların şərhini ön plana çəkir, şagirdlərdə daha çox nəzəri biliyi mənimsətməyə çalışır və bu zaman duzgün, ifadəli oxu mədəniyyətinin formalaşdırılması işini unudurlar. Belə bir vəziyyətin aradan qaldırılması, ilk növbədə, praktik əhəmiyyətə malik olan nəzəri-metodik araşdırmaların aparılmasını tələb edir.

İfadəli oxu ibtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikasında ciddi problem kimi diqqəti cəlb etsə də, çox zaman ikinci plana keçirilmiş, nəzəri biliyin öyrənilməsi prosesində ifadəli oxu vərdişlərinin inkişaf etdirilməsi imkanlarından lazımınca istifadə edilməmişdir. Halbuki ibtidai siniflərdə sintaksis elementlərinin tədrisi prosesində ifadəli oxu vərdişlərinin aşılanması üçün optimal imkan və şərait mövcuddur.

Araşdırma göstərir ki, A.S.Abdullayev, Ə.R.Əfəndizadə, Y.Ş.Kərimov, H.B.Balıyev, B.A.Əhmədov, N.Ə.Abdullayev, A.N.Rəhimov, M.Q.Məmmədov, Ş.A.Mikayılov, Ş.A.Sultanova, S.Quliyeva, Ə.Məmmədov, B.Ostroqorskiy, V.Flerov və bir sıra başqa metodist-alimlər şagirdlərin istər nitq mədəniyyəti, onun mahiyyəti, düzgün və ifadəli oxu bacarığına yiyələnməyin imkan və yolları, istərsə də sintaktik anlayışların tədrisi ilə bağlı müəyyən fikirlər söyləmişlər. Lakin aparılan tədqiqatlarda sintaksisə aid anlayışların mənimsədilməsi prosesində şagirdlərə ifadəli oxu vərdişlərinin aşılanması işinin mahiyyəti və məzmunu, oxu üçün materialların seçilməsinə verilən tələblər tam şəkildə öz əksini tapmamışdır. Odur ki, ana dili təlimi prosesinin, xüsusən onun məzmunu, metodları və vasitələrinin təkmilləşdirildiyi mövcud islahatlar şəraitində ibtidai siniflərdə Azərbaycan dili dərslərində sintaksisə dair anlayışların mənimsədilməsi zamanı ifadəli oxu üzrə işin sisteminin tədqiqi böyük önəm və aktuallıq kəsb edir. Bu sahədə aparılacaq işin səmərəli nəticə verməsi həmin imkanların dəqiqləşdirilməsi və onlardan istifadə yollarının müəyyənləşdirilməsindən xeyli asılıdır ki, mövcud dissertasiyada bu problemin ən optimal həllinə nail olunmağa çalışılmışdır.

**Tədqiqatın obyekti** ibtidai siniflərin Azərbaycan dili dərslərində sintaksis elementlərinin tədrisidir.

**Tədqiqatın predmeti** ibtidai siniflərdə Azərbaycan dili dərslərində sintaksis elementlərinin öyrənilməsi zamanı şagirdlərə ifadəli oxu bacarıqlarının aşılanması yollarıdır.

**Tədqiqatın məqsədi** ibtidai siniflərdə Azərbaycan dili dərslərində sintaksisə dair biliklərin mənimsənilməsi prosesində ifadəli oxu üzrə bacarıq və vərdişləri inkişaf etdirməkdən ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Əgər ibtidai siniflərdə sintaksis elementlərinin tədrisi prosesi:

- rabitəli və bədii mətn nümunələri üzərində qurularsa,
- düzgün, məntiqi, aydın oxunulan bu nümunələr interaktiv təlim metodları ilə aşılanarsa,
- bu iş sistemli, ardıcıl və məqsədyönlü şəkildə aparılarsa, şagirdlərdə ifadəli oxu bacarığının yaranmasına və inkişafına səbəb ola bilər.

Qarşıya qoyulmuş məqsədə nail olmaq və irəli sürülmüş fərziyyəni əsaslandırmaq üçün aşağıdakı **vəzifələr** müəyyənləşdirilmişdir:

- ibtidai siniflərdə sintaksis elementlərinin tədrisi prosesində ifadəli oxu vərdişlərinin aşılanması probleminin metodik əsaslarını müəyyənləşdirmək;
- ibtidai siniflərdə sintaksis elementlərinin tədrisi prosesində ifadəli oxu vərdişlərinin aşılanması istiqamətində proqram və dərslikləri, metodik ədəbiyyatı təhlil etmək;
- ibtidai siniflərdə ana dilinin tədrisi prosesində ifadəli oxu təliminin linqvistik problemlərini müəyyənləşdirmək;
- problem baxımından məktəb təcrübəsini öyrənib ümumiləşdirmək;
- ibtidai siniflərdə sintaksislə bağlı materialların tədrisi prosesində ifadəli oxu bacarıq və vərdişlərinin yaradılması və inkişaf etdirilməsinin imkan və yollarını araşdırmaq;
- ibtidai siniflərdə sintaksis materiallarının tədrisi prosesində ifadəli oxu bacarıq və vərdişlərinin yaradılması və inkişafı üzrə pedaqoji eksperiment apararaq nəticələrini təhlil etmək.

**Tədqiqatın metodoloji əsasını** fakt və hadisələri öyrənmək, dərk etmək və dəyişdirmək məqsədilə tətbiq olunan prinsiplərin, metodların və nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları.** İşin gedişi prosesində nəzəri təhlil və ümumiləşdirmə, müşahidə, sorğu kimi tədqiqat metodlarından istifadə edilmişdir.

Pedaqoji eksperiment 3 mərhələdə aparılmışdır. Müəyyənləşdirici eksperiment adlanan birinci mərhələ 2006-2007-ci illəri əhatə edir ki, bu zaman problemlə bağlı məktəb təcrübəsindəki vəziyyəti öyrənmək məqsədilə sinif müəllimləri ilə nəzərdə tutulmuş plan əsasında sorğu keçirilmiş, təlim prosesi müşahidə olunmuşdur.

Eksperimentin öyrədici mahiyyət daşıyan ikinci mərhələsi 2008-2011-ci illəri əhatə edir. Bu mərhələdə sintaktik elementlərin tədrisi zamanı ibtidai sinif şagirdlərinin ifadəli oxu bacarıqlarının inkişafına xidmət edən ən səmərəli imkan və yollar müəyyənləşdirilərək metodik əsasda işlənilmiş və təlim prosesində həyata keçirilmişdir.

Yoxlayıcı eksperiment kimi ifadə olunan üçüncü mərhələ isə 2011-2012-ci illərdə aparılmışdır. Bu mərhələdə təcrübə işinin materialları bir daha nəzərdən keçirilmiş, alınan nəticələr sistemləşdirilmiş və nəzəri ümumiləşdirmələr aparılmışdır.

Eksperiment Bakı şəhəri Xəzər rayonunun 156, 181, 183, 237 nömrəli ümumtəhsil məktəbinin ibtidai siniflərində aparılmışdır.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, sintaktik bilikərə istinadən ifadəli oxu bacarıqlarının inkişafı məsələsi ayrıca problem kimi sistemli şəkildə araşdırılmış və bu inteqrativ əlaqənin şagirdlərin təlim prosesinə marağının artırılmasındakı rolu sübuta yetirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqatın nəzəri-pedaqoji problemləri ilə bağlı əldə olunmuş nəticələr, ilk növbədə, ibtidai siniflərdə ana dili tədrisi zamanı ifadəli oxu ilə bağlı müddəaların zənginləşdirilməsi baxımından əhəmiyyət daşıyır. Bundan əlavə, tədqiqatın nəticələri, ümumiyyətlə, ifadəli oxu ilə bağlı fikirlərin təkmilləşdirilməsinə, onun müasir tələblər baxımından inkişaf edərək formalaşmasına təsir göstərir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqat aşağıdakı istiqamətlərdə tətbiq olunmaqla praktik əhəmiyyət daşıyır:

1) ümumtəhsil məktəblərinin ibtidai sinif müəllimlərinin Azərbaycan dili dərslərində sintaksis anlayışlarının tədrisi zamanı şagirdlərdə ifadəli oxu vərdişlərinin aşılanmasında;

2) ibtidai sinif müəllimi hazırlayan ali və orta ixtisas məktəblərində Azərbaycan dili və onun tədrisi metodikası üzrə kursun tədrisi zamanı;

3) ibtidai sinif müəllimlərinin ixtisasartırma və ixtisasdəyişmə kurslarında hazırlanması prosesində.

Müdafiəyə aşağıdakı **müddəalar** təqdim olunur:

1. İbtidai siniflərdə ana dili təliminin məzmunca təkmilləşdirilməsi və şagirdlərə aşılanacaq bacarıq və vərdişlərin müəyyənləşdirilməsi baxımından dilimizin sintaktik quruluşunu əks etdirən ən zəruri məlumatlartın ifadəli oxu materialları vasitəsilə mənimsədilməsi mühüm metodik əhəmiyyət kəsb edir.

2. İbtidai siniflərdə sintaksis elementlərinin öyrədilməsi zamanı ifadəli oxu bacarıqlarının yaradılması və inkişafı təlimə şagird marağını təmin edir, dərsin daha canlı və yaradıcı şəkildə qurulmasına böyük inkanlar açır.

3. İbtidai siniflərdə sintaksis elementlərinin öyrədilməsi prosesində bədii əsərlərdən götürülmüş nümunələr əsasında şagirdlərə ifadəli oxu vərdişlərinin aşılanması onlarda nitqin bədiiliyi, emosionallığı və obrazlılığı ilə bağlı ilkin və aydın təsəvvürlərin yaranması üçün möhkəm zəmin hazırlayır.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın ümumi nəticələri və əsas müddəaları ilə bağlı respublikada keçirilən elmi-praktik konfranslarda çıxışlar edilmiş, tezis və məqalələr nəşr olunmuşdur. Dissertasiya müzakirəyə təqdim edilənə kimi müəllifin elmi məcmuələrdə 14 məqaləsi nəşr olunmuşdur ki, bunlardan 11-i mövcud dissertasiya mövzusu ilə bağlıdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"İbtidai siniflərdə sintaksis elementlərinin tədrisi prosesində ifadəli oxu vərdişlərinin aşılanması probleminin nəzəri-metodik əsasları"** adlanan birinci fəsil dörd yarımfəsildən ibarətdir.

*"İbtidai siniflərdə sintaksis elementlərinin tədrisi prosesində ifadəli oxu vərdişlərinin aşılanması məsələsinin proqram və dərsliklərdə qoyuluşu"* adlanan birinci yarımfəsildə göstərilir ki, Azərbaycanda ana dilinin tədrisi tarixi zaman etibarilə xeyli əvvəllərə gedib çıxsa da, bu tədrisin müəyyənləşdirilmiş vahid proqram əsasında icrasına 1923-cü ildən başlanılmışdır. Dissertant araşdırılan problemə aydınlıq gətirmək üçün vaxtilə istifadəyə verilmiş proqramları təhlilə cəlb etmiş, ibtidai siniflərdə sintaksisə dair nəzərdə tutulan imkanları ifadəli oxu bacarıqlarının inkişafı baxımından araşdırmışdır. Müasir pedaqoji yanaşmaya görə, ənənəvi təlimin məzmununu müəyyənləşdirən həmin proqramların ən spesifik cəhətləri 2001-ci ildə hazırlanmış "Ana dili" proqramında daha qabarıq əks olunduğundan daha geniş şəkildə təhlilə cəlb olunur. Göstərilir ki, həmin proqramda "şagirdlərə doğma dildə oxumağı və yazmağı öyrətmək, onların şifahi və yazılı nitqini inkişaf etdirmək" bir məqsəd kimi götürülür, tədris prosesində şagirdlərə oxu texnikasını öyrətmək və normal oxu vərdişləri (düzgünlük, sürətlilik, ifadəlilik, şüurluluq) aşılamaq əsas vəzifələrdən biri kimi nəzərdə tutulur. Bundan əlavə, şagirdlərin sadə fonetik və qrammatik

hadisələri şüurlu mənimsəmələri də qarşıya qoyulan vəzifələr sırasında sadalanır. Bu, ona görə əhəmiyyətlidir ki, şagirdlərin təlim prosesində müvafiq tələblərə uyğun nitqə yiyələnmələri üçün, sadə şəkildə olsa da, linqvistik biliklərə yiyələnmələri olduqca vacibdir. Hətta I sinifdə savad təlimi dövründə şagirdlərin rabitəli, obrazlı nitqə yiyələnmələri ön plana çəkilir. Şifahi nitq inkişafına nail olmaq üçün "nitqi, nitq səslərini eşitmək vərdişlərinin inkişafı, düzgün nəfəsalma, normal tənəffüs, orta səs gücü ilə danışmaq, lazım gəldikdə səsi qaldırıb aşağı salmaq" kimi qabiliyyətlərin nəzərdə tutulması, tədqiqatdan görəcəyimiz kimi, həm də ifadəli oxu vərdişlərinin yaradılması və inkişafına xidmət edir. Bu ilkin bacarıqlar yaradılmadan təlim prosesində ifadəli oxuya nail olmaq mümkün deyil. Proqramda şagirdlərin hansı bilik və bacarıqlara yiyələnməsinin göstərilməsi onun məziyyətlərindən sayılmalıdır. Məsələn, termin işlətmədən sözdə vurğunun yerini, cümlənin axırında durğu işarələrinin nə məqsədlə qoyulduğunu bilmək şagird qarşısında qoyulan əsas tələblərdən sayılır. Bu xətt növbəti siniflərdə davam etdirilərək ifadəli oxu vərdişlərinin inkişafını düzgün, sürətli və şüurlu oxu ilə bərabər yüksəltməyi önə çəkir. Belə ki, ikinci sinifdə oxu prosesində nitqin təbiiliyinin, ədəbi tələffüz normalarının gözlənilməsi, durğu işarələrinin nəzərə alınması, cümlədə mənaca mühüm olan, üzərinə məntiqi vurğu düşən sözün müəyyənləşdirilməsi, sözlər, cümlələr, arasında fasilənin gözlənilməsi, məzmuna uyğun səs tonunun seçilməsi kimi ifadəli oxu üçün vacib sayılan bacarıqlar III və IV siniflərdə daha təkmil formada işlənilmişdir. Bu yanaşma sintaksisə dair bilik və bacarıqların həcminin siniflər üzrə müəyyənləşdirilməsində də özünü büruzə verir. Əgər II sinifdə "Cümlə" bəhsinin tədrisinə 16 saat vaxt ayrılırsa, III sinifdə 20 saat, IV sinifdə isə 37 saat vaxt nəzərdə tutulur. Göründüyü kimi, sinifdən sinfə keçdikcə genişlənən məzmun hesabına sintaksisə dair anlayışların mənimsədilməsinə ayrılmış dərs saatlarının miqdarı müvafiq qaydada artırılır. Bütün bu müsbət göstəricilərinə baxmayaraq, təlim prosesində şagirdlərin sadə ifadəli oxu vərdişlərinə yiyələnməsi bir problem olaraq qalmaqda idi. Bu, ondan irəli gəlirdi ki, ibtidai siniflərdə təlim yükü ağır idi və nəzərdə tutlmuş biliklər, o cümlədən sintaksisə dair biliklər praktik vərdişlərin yaradılması və inkişafına tam istiqamətlənməmişdi. Şagirdlərdən, əsasən, tərif və qaydalar soruşulur, lüğət ehtiyatı mətn kontekstində zənginləşdirilmirdi. Təbii ki, bu və digər amillər təhsil sahəsində köklü islahatlar aparılmasını önə çəkdi və 2007-2008-ci ildə ibtidai məktəbin birinci siniflərində "Kurikulum islahatı" adı altında məzmunca yeniləşdirilmiş təlimin tətbiqinə başlanıldı. Hazırda orta

təhsil səviyyəsinin 5-ci sinfinə adlamış bu islahatın təlimin məzmununa və təşkilinə hansı yeniliklər gətirdiyi maraq doğurur ki, məsələnin birinci tərəfini ibtidai siniflərdə "Ana dili" fənn kurikulumunu təhlil etməklə cavablandırılmışdır.

"Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)" sənədində kurikulumun hazırlanmasında istinad edilən 6 prinsip sırasında tələbyönümlülük, nəticəyönümülülük, şagirdyönümlülük və inteqrativlik xüsusi önəm kəsb edir. İbtidai siniflərdə ana dili təlimi də mahiyyətcə inteqrativ fənn funksiyası yerinə yetirdiyindən burada şagirdlərin "nitq və dil bacarıqlarına yiyələnməklə ümumi nitq inkişafına nail olmaq" kimi vəzifəni həyata keçirmək üçün onun məzmunu dilin nitq fəaliyyəti növlərinə (dinləyib-anlama, danışma, oxu və yazı) uyğun şəkildə işlənilmişdir. Eyni zamanda, həmin fəaliyyətlərə linqvistik əsas verən elementar nəzəri bilik və bacarıqların şagirdlərə aşılanması "Dil qaydaları" məzmun xətti ilə əlaqələndirilmişdir. Fənn kurikulumunda şagirddən gözlənilən bacarıqlar ümumiləşdirilmiş və hər bir sinfin sonunda hansı tələblərə uyğun aşılanması konkretləşdirilmişdir. Bunu şagirdlərin ifadəli oxu bacarıqlarına qoyulan tələblərdə də görmək mümkündür. Belə ki, ibtidai təhsil səviyyəsinin sonunda şagirddən tələb olunan bacarıqlar "Oxu" məzmun xəttində "mətni düzgün, sürətli, ifadəli, şüurlu oxuyur" şəklində, "Dil qaydaları" məzmun xəttində isə "oxu texnikasına və vərdişlərinə yiyələndiyini nümayiş etdirir" şəklində ifadə olunur və bu, siniflər üzrə şagirdlərin anlam səviyyəsinə müvafiq qaydada sistemləşdirilir. Hər bir sinfin sonunda şagirddən "Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir" və "Zəruri dil qaydalarını mənimsədiyini nümayiş etdirir" tələbi gözlənilir. Bundan əlavə, məzmun xətlərini açıqlayan alt standartlar vasitəsilə bilik və bacarıqların hansı səviyyədə şagirdlərə aşılanması konkret formada ifadə olunur.

Müqayisəli təhlil istifadədən çıxmış dərsliklərlə hazırda istifadədə olan dərsliklər arasında da aparılmış, nöqsanlı cəhətlər üzə çıxarılaraq münasibət bildirilmiş və belə bir nəticəyə gəlinmişdir:

1. İstər ənənəvi Azərbaycan dili proqramlarında, istərsə də "Azərbaycan dili" fənn kurikulumunda şagirdlərin ifadəli oxu bacarıqlarına yiyələnməsi üçün müəyyən imkanların yaradılması diqqət mərkəzində saxlanılmışdır. Bu imkanlar yalnız bədii nümunələri əhatə edən oxu materiallarını deyil, həm də dilimizin sintaktik quruluşunu əks etdirən sadə məlumatları əhatə edir. Ənənəvi proqramlarda sintaksisə dair nəzəri məlumatlar daha çox bilik əldə etmək məqsədilə verilmişdirsə, fənn kurikulumunda konkret

təlim məqsədlərinə yönəlmiş oxu, yazı və danışma bacarıqları yaratmağa istiqamətlənmiş nitq mədəniyyəti formlaşdırmağa xidmət edir.

2. Uzun müddət ana dili təlimi bir-biri ilə bəzən zəif əlaqələndirilmiş "Oxu" və "Azərbaycan dili" dərslikləri vasitəsilə həyata keçirildiyindən dil qaydalarının, o cümlədən sintaksisə aid sadə bilik və bacarıqların düzgün, şüurlu, sürətli və xüsusən də ifadəli oxu bacarıqlarının yaranmasında oynadığı rol minimuma endirilmişdir. Yeni nəsil "Azərbycan dili" dərsliklərində bu nöqsan aradan qaldırılaraq, dil qaydalarının oxu və yazı bacarıqlarına inteqrasiya edilməsi yolu ilə aşılanması nəzərdə tutulsa da, elementar linqvistik məlumatların siniflər üzrə sadədən mürəkkəbə doğru verilməsinə nail olunmamışdır. Bu isə sintaksisə dair biliklərin ifadəli oxu bacarıqlarının inkişafı ilə üzvi surətdə əlaqələnməsi işində müəyyən maneələr yaradır. Odur ki, bu sahədə sistemli iş aparılmasına böyük ehtiyac duyulur.

*"İbtidai siniflərdə sintaksis elementlərinin tədrisi prosesində ifadəli oxu vərdişlərinin aşılanması baxımından metodik ədəbiyyatın təhlili"* adlı ikinci yarımfəsildə ibtidai siniflərdə sintaksis elementlərinin tədrisi prosesində ifadəli oxu vərdişlərinin aşılanması ilə bağlı metodik ədəbiyyatda irəli sürülmüş fikir və mülahizələr nəzərdən keçirilir.

Tarixə ekskursiya edən tədqiqatçı M. Sadıqzadənin "Türk dilinin üsuli-tədrisi", B.Çobanzadənin "Türk dili və ədəbiyyat üsuli-tədrisi" və C.Məmmədzadə ilə birgə yazdığı "Türk dilinin metodikası" kitablarını ana dilinin tədrisində mühüm əhəmiyyət kəsb edən metodik əsərlər kimi dəyərləndirir, Ə.Dəmirçizadə, F.Qasımzadə kimi alimlərin ifadəli oxu məsələləri haqqındakı fikirlərini şərh edir. Keçən yüzilliyin 30-90-cı illərində nəşr olunmuş əsərlər sadalanaraq, burada araşdırılan problemə hansı mövqelərdən yanaşılması üzə çıxarılır.

A.Abdullayev, Y.Kərimov, B.Əhmədov, H.Balıyev, A.Rəhimov, N.Abdullayev kimi tanınmış mütəxəssislərin təlim prosesində şagirdlərin ifadəli oxu bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı tədqiqatlarında əksini tapmış müddəalar qabardılır. Bildirilir ki, bu problem, sintaksisə dair bilik və bacarıqların mənimsədilməsi zamanı ifadəli oxu vərdişlərinin inkişafı məsələsi A.Rəhimovun doktorluq dissertasiyasında və bu əsasda hazırladığı "Azərbaycan dilindən sintaksisin tədrisinin nəzəri və praktiki əsasları" monoqrafik əsərində xüsusi olaraq işlənilmişdir. Həmin əsərin "İfadəli oxu sintaksis üzrə bilik, bacarıq və vərdişlərin formalaşmasında bir vasitə kimi" başlığı ilə getmiş hissədə müəllif ifadəli oxunun dilin qrammatik quruluşunun daha şüurlu mənimsənilməsindəki rolundan danışır. Müəllifin fikrincə: "İfadəli oxu şagirdlərin lüğət ehtiyatını söz və söz birləşmələri blokları ilə

zənginləşdirir, onlar cümlədə sözlərin, rabitəli mətndə cümlələrin əlaqəsini öyrənir, ifadə etdikləri məna tutumunu mənimsəyirlər" . Bu əsərdə ifadəli oxu belə şərh olunur: "İfadəli oxu mətnin şifahi nitqdə ahəngdar, bədii şəkildə, emosional meydana çıxmasıdır". Müəllif sintaksisin tədrisi prosesində ifadəlilik yaradan intonasiya, məntiqi vurğu kimi anlayışlar üzərində dayanmaqla ifadəli oxu bacarıqlarının formalaşmasına imkan verən məqamları dəqiqqliyi ilə şərh etmişdir. Müəllif ifadəli oxu üçün fasilənin nə dərəcədə əhəmiyyətli olduğunu nəzərə çatdırmaqla onun növləri üzərində dayanır və maddə-maddə nümunələr üzərində iş aparmaqla izah edir. Bütün bu xüsusiyyətlərinə baxmayaraq, araşdırılan məsələyə münasibətdə bizim yanaşmamız köklü surətdə fərqlənir. Belə ki, A.Rəhimov ifadəli oxu zamanı sintaksis üzrə bilik, bacarıq və vərdişlərin formalaşması problemini araşdırmışdırsa, biz sintaksisə dair bilik və bacarıqların mənimsədilməsi prosesində ifadəli oxu vərdişlərinin yaranması və inkişafı məsələsini tədqiq etməyi önə çəkmişik. Bununla belə, həmin fikirlər bizim tədqiqat üçün olduqca faydalı mənbə kimi götürülmüşdür.

İbtidai məktəbdə ana dilinin tədrisi metodikasına dair ədəbiyyatın təhlili göstərir ki, bu sahədə yazılan əsər və məqalələrdə Azərbaycan dilindən sintaksis materiallarının tədrisi prosesində ifadəli oxu vərdişlərinin inkişafı ilə bağlı işlərə ötəri toxunulmuş, ayrıca tədqiqat işi aparılmamışdır.

Birinci fəslin *"İbtidai siniflərdə ana dilinin tədrisi prosesində ifadəli oxu təliminin linqvistik problemləri"* adlı üçüncü yarımfəslində ibtidai siniflərdə ana dilinin tədrisi prosesində ifadəli oxu üzrə aparılan praktik işin linqvistik əsaslarından, xüsusilə intonasiya, məntiqi vurğu və s. kimi vasitələrindən bəhs olunur. Durğu işarələrinin sintaksislə birbaşa bağlılığı, fasilə və intonasiyaya düzgün əməl olunmasında nöqtə, vergül, sual və nida işarələrinin əhəmiyyəti məsələləri barədə formalaşmış fikirlər və onlara təlim prosesində əməl olunmasından danışılır. Bundan əlavə, oxu prosesinə ifadəlilik verən ton, tembr kimi anlayışların mahiyyəti bədii nümunələrdən götürülmüş parçalar vasitəsilə şərh olunur.

*"Problem baxımından məktəb təcrübəsinin öyrənilib ümumiləşdirilməsi"* adlanan dördüncü yarımfəsildə isə bildirilir ki, müasir dərs şagirdlərin intellektual potensialını yüksəltməyə yönəldilmiş yaradıcı bir prosesdir. Şagird marağı üzərində qurulmuş bu prosesin düzgün və səmərəli təşkili müəllimdən pedaqoji ustalıqla yanaşı, tədris etdiyi fənnin nəzəri əsasları ilə bağlı hərtərəfli bilik tələb edir. Öz peşəsinin incəliklərinə bələd olmadan heç bir müəllim seçdiyi fənni yetirmələrinə sevdirə bilməz. Bu baxımdan ibtidai sinif müəllimlərinə verilən tələblər daha geniş və

məsuliyyətlidir. İddiaçı problem baxımından real vəziyyəti öyrənmək məqsədilə iki istiqamətdə iş aparmışdır. Birincisi, müşahidə yolu ilə Azərbaycan dili dərslərində sintaksis elementlərin tədrisi zamanı ifadəli oxu bacarıqlarının inkişafına nə dərəcədə yer verildiyi öyrənilmiş, ikincisi, 5 sualdan ibarət sorğu materialı vasitəsilə sinif müəllimlərinin problemə bələdlik səviyyəsi və öz praktikalarında ona necə əməl etmələri müəyyənləşdirilmişdir.

Beləliklə, problemlə əlaqəli metodik ədəbiyyatin, proqram və dərsliklərin, eləcə də məktəb təcrübəsinin təhlilinə əsasən aşağıdakı nəticələrə gəlinmişdir:

1.İstər ənənəvi proqram və dərsliklərdə, istərsə də "Azərbaycan dili" fənn kurikulumu və bu əsasda yazılmış yeni dərsliklərdə ibtidai sinif şagirdlərinin ifadəli oxu bacarıqlarının inkişafı üçün müəyyən imkanlar nəzərdə tutulmuşdur ki, bunların da əsas qismi məhz sintaksis elementlərinin tədrisi ilə bağlıdır. Bu mühüm metodik göstəricinin olmasına baxmayaraq, siniflər arasında sintaksis elementlərinin şagirdlərin anlam səviyyəsinə uyğun bölüşdürülməməsi qrammatik biliklərin oxu bacarıqları ilə qarşılıqlı əlaqədə mənimsədilməsi ilə bağlı problemlər yaradır.

2.Metodik ədəbiyyatda ifadəli oxu bacarıqlarının inkişafı məsələsi tədqiqat obyekti kimi araşdırılsa da, həmin prosesdə sintaksis elementlərindən səmərəli istifadə sistemli şəkildə öyrənilməmişdir.

3.Hər iki amilin təsiridir ki, təcrübədə şagirdlərin oxu bacarıqlarının inkişafı qrammatik biliklərin aşılanması ilə üzvi surətdə ya zəif əlaqələndirilir, ya da sinif müəllimlərinin diqqətindən kənarda qalır.

Dissertasiyanın ikinci fəsli "**İbtidai siniflərdə sintaksislə bağlı materialların tədrisi prosesində ifadəli oxu bacarıq və vərdişlərinin yaradılması və inkişaf etdirilməsinin imkan və yolları**" adlanır. Bu fəsil də üç yarımfəsildən ibarətdir. "İbtidai siniflərdə ana dilinin tədrisi prosesində şagirdlərdə ifadəli oxu bacarıq və vərdişlərinin yaradılması və inkişaf etdirilməsi yolları" adlanan birinci yarımfəsildə ifadəli oxunun ədəbi tələffüzlə bağlı olan mühüm şərtlərindən, ibtidai siniflərdə sintaksislə bağlı materialların tədrisi prosesində ifadəli oxu vərdişlərinin inkişaf etdirilməsi yolları şərh olunur, araşdırmalar bədii nümunələr və misallarla əsaslandırılır.

İfadəli oxunun əsas şərtlərindən biri danışıq və oxu prosesində orfoepik normaların gözlənilməsidir. Düzgün ədəbi tələffüzə, orfoepik tələblərə, qaydalara riayət edilməyən yerdə, əlbəttə, ifadəli oxudan danışmağın özü

yersizdir. Orfoepik tələffüzün ifadəli oxuda əhəmiyyəti çox böyükdür. Tələffüz normalarının hər hansı bir şəkildə pozulması mətnin məzmununun qavranılmasını çətinləşdirir. Orfoepik qaydalar ifadəli oxuya təbiilik, canlılıq, axıcılıq gətirir, fikrin asan qavranılmasını təmin edir. Ona görə də ibtidai siniflərdə ana dilinin tədrisi prosesində şagirdlərdə ifadəli oxu vərdişlərinin yaranması üçün onları bir sıra mühüm təmrin və tapşırıqlar üzərində işlətmək, orfoepik qaydaları onlara mənimsətmək lazım gəlir. Dissertasiyada bu sahədə aparılan işin yolları göstərilir, nümunələr verilir.

İfadəli oxu üçün vurğunun da böyük əhəmiyyəti vardır. Sözdə vurğunun yerinə düşmədiyi hallar, qəbul olunmuş ümumi normalardan – fonetik və ya qrammatik normalardan yayınma halları bədii əsərin ahəngini, musiqililiyini pozur, onun dinləyiciyə estetik təsirini zəiflədir. Bu zaman şagird üçün əsas nümunə müəllimin özünün ifadəli oxusu ola bilər. Bütün bunları nəzərə alaraq, müəllim oxu dərsinə hazırlaşarkən hər bir sözün tələffüzü üzərində fikirləşməli, oxu prosesində orfoepik qaydalara və vurğuya düzgün əməl etməlidir.

Bu fəslin *"İbtidai siniflərdə sintaksis materiallarının tədrisi prosesində ifadəli oxu bacarıq və vərdişlərinin inkişafı üzrə aparılan işlər"* yarımfəslində ibtidai siniflərdə sintaksis materiallarının tədrisi zamanı şagirdlərdə ifadəli oxu bacarıq və vərdişlərinin inkişafı və bu məqsədlə aparılan işlərdən bəhs edilir, irəli sürülən fikirlər bədii nümunələr və faktlarla əsaslandırılır.

İbtidai siniflərdə cümlə, onun məna və intonasiyaya görə növləri haqqında sadə, lakin ən zəruri bilik və bacarıqlar bir neçə sinifdə şagirdlərə aşılanır. Sadə cümlənin məqsəd və intonasiyaya görə növləri – nəqli, sual, nida və əmr cümlələri mövzularının tədrisi prosesində intonasiya üzərində müşahidə aparmaq üçün geniş imkanlar vardır. Bu cümlə növləri tədris edilərkən nitqin intonasiya cəhətinə ciddi diqqət yetirilməsi həmin mövzuların mənimsənilməsini asanlaşdırır, şagirdlərin ifadəli oxu vərdişlərinə yiyələnmələrinə kömək etmiş olur. Bu cümlələrin oxunuşunda intonasiyaya düzgün riayət edilmədikdə nitqin gözəlliyi itir, təsiri zəifləyir, orada ifadə edilən məzmun düzgün dərk edilə bilmir.

Müəllim sadə cümlənin məqsəd və intonasiyaya görə növləri haqqında şagirdlərdə müvafiq bilik və bacarıqlar yaratmaq üçün interaktiv təlim metodları əsasında qurulmuş müasir dərs formalarından istifadə edir. Bunun üçün təlim fəaliyyətinə istiqamətləndirən və müvafiq qaydada seçilmiş alt standartlardan irəli gələn təlim məqsədləri müəyyənləşdirilir. Motivasiya yaratmaq üçün dərslikdən və ya şagirdlərin anlam səviyyəsinə

uyğun bir bədii nümunənin ifadəli oxusu səsləndirilir və ifadəlilik yaradan vasitələr barədə qruplara bölünmüş sinfin işçi fərziyyəsi dinlənilir. Bundan sonra qrupları tədqiqatçılığa sövq edən tədqiqat sualı müəyyənləşdirilir və müxtəlif tapşırıqlardan tərtib olunmuş iş vərəqləri üzərində iş aparılır. Fikir mübadiləsi və müzakirələrdən sonra qrup üzvləri sinif qarşısında təqdimatlarla çıxış edır. Müəllim müvafiq qiymətləndirmə meyarları ilə bu qrup təqdimatlarını dəyərləndirir. Bu dərs formasının üstünlüyü ondadır ki, müəllim həm dil hadisələrini mətn üzərində işlə mənimsədir, həm düzgün, ifadəli oxu vərdişləri yaradır, həm də əvvəlcədən müəyyənləşdirib sinif lövhəsində nümayiş etdirilən qiymətləndirmə cədvəli ilə onların bacarıqlara yiyələnmə səviyyəsini şəffaflıqla aydınlaşdırır.

İbtidai siniflərdə sintaksislə bağlı materialların tədrisi prosesində şagirdlərdə ifadəli oxu bacarıq və vərdişlərinin aşılanması üzrə araşdırmalar üçün təcrübə obyekti kimi Bakı şəhəri Xəzər rayonu 181, 183, 156, 237 saylı orta ümumtəhsil məktəbləri seçilmiş, pedaqoji eksperiment məktəbin IV siniflərində (IVa sinfi yoxlama, IVb sinfi isə eksperiment sinfi kimi seçilmişdir) aparılmışdır. Şagirdlərin məqsəd və intonasiyayadan asılı olaraq cümlələri fərqləndirmək və müvafiq qaydada oxumaq bacarıqları əksər dərslərdə, o cümlədən Ç.Ələkbərzadənin "Qızıl balıq" hekayəsinin oxusu üzərində iş aparılarkən də davam etdirilməlidir. Müəllim həmin hekayədə aşağıdakı dialoqları qruplara ifadəli oxumaq tapşırığı verir:

I qrupun tapşırığı. Dialoqu ifadəli oxuyun və burada işlənmiş cümlələri məna və intonasiyaya görə qruplaşdırın.

"Balığın qəlsəmələri yavaş-yavaş qalxıb enirdi. Uşaqlar bundan təşvişə düşdülər. Gülnaz o biri otağa gedib, atasına xəbər verdi:

– Ağbalıq xəstələnib!

Ağbalığın qarnının şişdiyini görən ata uşaqlardan soruşdu:

– Balıqlara nə yedizdirmisiniz?

Araz dedi:

– Çörək qırıntısı.

– Yəqin, çox səpmisiniz?

Gülnaz bildirdi:

– Lap doyunca.

– Hm... aydındır! Balıq çörəkdən köpüb, tələf olacaq. Onlara balıq yemi vermək lazımdır".

II qrupun tapşırığı. Dialoqu oxuyun, nida cümlələrini seçib digərlərindən hansı cəhətdən fərqləndiyini göstərin:

"Səhər bacı və qardaş mağazaya getdilər. Araz satıcıya müraciət etdi:

– Dünən sizdən aldığım su birəsi tozunu balıqlara verdik. Sularını təzələdikdən sonra nədənsə biri öldü.

– Bir de görüm, suyu necə dəyişdiniz?

– Çətin iş deyil ki! Kranı açıb akvariumu doldurduq.

– Balıqları da dərhal oraya saldınız. Eləmi?

– Bəli.

– Tələsmisiniz, bala! Tələsmisiniz! Kran suyunda çoxlu hava olur. Bu isə balıq üçün ziyandır. Suyu krandan alandan sonra bir müddət gözləmək lazımdır ki, içindəki hava çıxsın” .

III qrupun tapşırığı. Mətn parçasını ifadəli oxuyun, buraxılmış durğu işarələrini yerinə qoyun:

“ Artıq qızıl balıq tək qalmışdı O daha əvvəlki kimi cəld və qıvraq deyildi. Qabın dibinə qısılıb hərəkətsiz dururdu

Arazın ona yazığı gəlirdi. Bir dəfə o bacısına dedi:

– Gəlsənə qızıl balığı aparıb gölə buraxaq.

Gülnaz burnunu salladı:

– Yox, istəmirəm

– Tərslik eləmə. Axı balıq da azadlıq sevir”.

IV qrupun tapşırığı. Nida cümlələrini seçib hansı üsulla yarandığını söyləyin:

“Uşaqlar qızıl balığın dalınca xeyli baxdılar. Gülnaz tutulan kimi oldu:

– Buraya tez-tez gəlib balığımıza baş çəkərik.

Araz dedi:

– Eh, sən də söz danışdın! Bu boyda göldə o balığı görmək olar?!”

Qrup üzvlərinin birgə müzakirəsi və tədqiqatının yekunu olaraq sinif qarşısında təqdimatlar edildi. Əvvəlcə mətn səhnələşdirilərək rolllar üzrə oxundu və qrupun lideri verilmiş mətn parçasında 4 nəqli, 2 sual və 2 nəqli cümlə işlənildiyini qeyd etdi.

İkinci qrup üzvləri də mətn parçasını rollar üzrə oxudular və lider “Çətin iş deyil ki!” və “Tələsməyiniz, bala!” cümlələrinin qətiyyət və səmimiyyət hissi ilə deyildiyi üçün nida cümləsi olduğunu söylədi.

Üçüncü qrupun üzvləri də mətni səhnələşdirilmiş varintda sinfə təqdim etdilər. Qrupun lideri bu mətndə 5 nöqtə, 2 nida və bir sual işarəsinin buraxıldığını qeyd etdi. Müəllim verilmiş cavabın kitabdakı yazılışla müqayisə edilməsini digər qruplara tapşırdı. Məlum oldu ki, kitabda yalnız bir nida işarəsindən istifadə edilmişdir. Müəllim buraxılmış nöqsanın nə ilə

bağlı olduğunu araşdırmağı tapşırdı. Elə həmin qrupun üzvləri bunu belə izah etdilər:

– Biz “Tərslik eləmə” cümləsinin təkid, etiraz ifadə etməsinə əsasən nida cümləsinə aid etmişik.

Müəllim uşaqlarla razılaşdı və bildirdi ki, göstərilən cümlə əmr cümləsidir, ancaq onu yüksək tonla dedikdə nida cümləsinə çevirmək mümkündür.

Dördüncü qrupun üzvləri də mətni rollar üzrə ifa etdilər və “Eh, sən də söz danışdın!” və “Bu boyda göldə o balığı görmək olar?!” cümlələrini nida cümləsi kimi izah etdilər. Qrup nümayəndəsi birinci cümlənin nidanın, ikinci cümlənin isə yalnız intonasiyanın köməyi ilə yarandığını bildirdi.

Göründüyü kimi, şagirdlər həm ifadə oxu bacarıqları nümayiş etdirdilər, həm də nitqdə ifadəlilik yaradan vasitələri dəqiq müəyyənləşdirdilər.

Bu iş Məstan Günərin “Suallar, cavablar” şeirinin ifadəli oxusu cüt-cüt yerinə yetirildi. Belə ki mətn oğul və ata arasında dialoq formasında oxundu.

Birinci cütlük.

| Oğul: | Ata: |
|---|---|
| – Ata, sən bizə<br>Danış bir görək:<br>Qışda üşümür<br>Göldə qaz, ördək? | – Tükünə baxır. |

İkinci cütlük.

| Oğul: | Ata: |
|---|---|
| – Qar altda turplar<br>Qızınır necə?<br>Soyuq deyilmi<br>Onlara gecə? | – Ləkinə baxır. |

Üçüncü cütlük.

| Oğul: | Ata: |
|---|---|
| – İsti bələkdə<br>Yatır körpələr.<br>Donmur şaxtada<br>Çöldə kirpilər? | – Kürkünə baxır. |

Dördüncü cütlük.

| Oğul: | Ata: |
|---|---|
| – Çıxa bilmirik | – Əkinə baxır. |

İsti otaqdan.
Çöldə toxumlar
Qorxmur sazaqdan?

Beşinci cütlük.

Oğul:
– Birdən kəsmədi
Güclü küləklər.
Ağaclar onda
Yerindən qopar?

Ata:
– Kökünə baxır.

Dialoqlardan ibarət bu şeirin ifadəli oxusu sual və nəqli cümlə intonasiyası üzərində qurulduğundan şagirdlərə şən əhvali-ruhiyyə aşılamaqdan əlavə, həm də dərsdə bir yaradıcılıq ovqatı yaratmışdı. Üç, dord və beşinci bəndlərdə atanın cavablarındakı ilk sözlər mətndə buraxıldığı üçün onları şagirdlər özləri tapmalı oldular ki, bu da onların düşüncə tərzinin inkişafına xidmət edirdi. Cütlərə bölünmüş sinif şagirdləri arasında keçirilən dərs onlarda rəqabət hissinin də formalaşmasına yardım edirdi. Bu dərs forması sintaksisə dair digər elementlərin, məsələn, cümlə üzvləri, xitab, mürəkkəb cümlə növləri haqqında sadə məlumatların verilməsi zamanı da tətbiq olundu və mətn üzərində aparılan iş şagirdlərin ifadəli oxu bacarıqlarının inkişafına öz müsbət təsirini göstərmiş oldu.

Beləliklə, şagirdlərin dilimizin sintaktik quruluşu ilə bağlı ən zəruri məlumatlara yiyələnməsi onların şifahi və yazılı nitq bacarıqlarının inkişafında başlıca rol oynayır ki, bu, nəzəri və praktik baxımdan mübahisə doğurmayan mülahizələrdəndir. Lakin ondan hansı məqamda və necə istifadə edilməsi məsələsi problem olaraq qalmaqdadır. Fikrimizcə, ifadəli oxu bacarıqlarının inkişafı məqsədilə sintaksis elementlərinə yetərincə istinad edilməsi üçün müəllimin diaqnostik və formativ qiymətləndirmə vasitələrindən istifadəsi olduqca əhəmiyyətlidir. Artıq qeyd edildiyi kimi, ifadəli oxu bacarıqlarının inkişafı ilk növbədə düzgün, rəvan və şüurlu oxu bacarıqlarının inkişafından asılıdır. Əgər şagird oxu texnikasına yiyələnməyibsə, ifadəli oxu bacarığının inkişafından söz açıla bilməz. Məhz buna görə də hər bir sinif müəllimi dərs ilinin əvvəlində şagirdlərin oxu bacarıqlarına yiyələnmə səviyyəsini müəyyənləşdirməli və növbəti dərslərdə bu faktdan çıxış edərək təlim prosesini qurmalıdır. Formativ qiymətləndirmə zamanı isə ifadəli oxu bacarıqları da daxil olmaqla oxuya verilən bütün tələbləri gözləməklə şagirdlərin inkişaf sürəti ardıcıllıqla izlənilməlidir. Bu işdə valideylərlə birgə işin mühüm rol oynadığı xüsusi nəzərə alınmalıdır. Valideynlərlə qarşılıqlı əlaqə müəllimə imkan verir ki, şagirdin

təlim fəaliyyəti yalnız sinifdə deyil, həm də məktəbdənkənar vaxtlarda nəzarət altında olsun.

**İkinci fəslin** *"İbtidai siniflərdə sintaksis elementlərinin tədrisi prosesində ifadəli oxu vərdişlərinin aşılanması üzrə pedaqoji eksperimentin təşkili, keçirilməsi və yekunlaşdırılması"* yarımfəslində təcrübi araşdırmalar yekunlaşdırılır, eksperimentin müsbət nəticələri açıqlanır.

Tədqiqat müddətində məktəblərimizdə ifadəli oxu vərdişlərini aşılamaq sahəsində qabaqcıl iş təcrübələri ümumiləşdirilmiş, sintaksis materiallarının tədrisi prosesində şagirdlərin ifadəli oxu vərdişlərini inkişaf etdirmək üçün irəli sürdüyümüz müddəalar Bakı şəhərinin bəzi rayon və kəndlərində, daha əsaslı şəkildə isə Xəzər rayonu, Mərdəkan qəsəbəsindəki 181 saylı orta məktəbin dördüncü sinfində eksperiment vasitəsi ilə yoxlanmışdır.

Müəyyənedici eksperiment şagirdlərin proqram materiallarını necə mənimsədiklərini öyrənməyə xidmət etmiş, pedaqoji eksperimentin bu mərhələsi tədqiq olunan problem və ya konkret mövzu üzrə faktik vəziyyəti müəyyənləşdirməyə imkan vermiş, öyrədici eksperiment üçün baza rolunu oynayaraq onun sistemli şəkildə qurulmasına əsas yaratmışdır.

Öyrədici eksperiment eksperimental siniflər üçün hazırlanan yeni sistemin təliminə, öyrədilməsinə xidmət etmişdir. Eksperimental siniflərin müəllimlərinə lazımi məsləhətlər verilmiş, yoxlama siniflərin müəllimləri isə yalnız nəyin eksperimentə qoyulması barədə məlumatlandırılmışdır.

Eksperiment üçün hazırlanmış işləmələrdə sintaksislə bağlı mövzular dərslikdəkindən fərqli şəkildə verilmiş, bu mövzuların tədrisində şagirdlərin ifadəli oxu bacarığının inkişafı ön plana çəkilmişdir.

Tədqiqat nəticəsində təklif edilən metodik işin səmərəliliyini təsdiq etmək məqsədilə yoxlama (IVa) və eksperimental (IVb) siniflərində aşağıdakı rabitəsiz mətn üzrə yoxlama imla aparılmışdır.

1. Balıqçılar qayıqlara minib, sahildən xeyli uzaqlaşdılar.
2. Hə, bulaq xoşuna gəlirmi?
3. Bir bax! Gör sənə necə maraqlı kitablar almışam?!
4. Salman gəlib çıxmadı?
5. Qoca gözətçi nərdivana qalxaraq, fənərlərin lampalarını söndürdü.
6. Poladzadə işığı yandıranda qapı açıldı.
7. Arif də, Dilbər də, Eldar da məktəblidir.
8. Dilşad səhər tezdən durur, əl-üzünü yuyur, anasına su gətirir, sonra isə məktəbə gedir.
9. Çay çox dərin idi, amma qorxulu deyildi.

Mətn ədəbi tələffüz, intonasiya qaydalarını gözləməklə diqtə olunmuş, şagirdlər müəllimin oxusunu diqqətlə dinləyərək cümlələri yazmış, müvafiq durğu işarələrini qoymuşlar.

Əlbəttə, belə bir imlanı aparmaqda məqsəd nəzərdə tutulan mövzuların tədrisindən əvvəl eksperiment aparılan siniflə yoxlama sinfi şagirdlərinin hazırlıq səviyyələrini və eləcə də həmin bəhsin (sadə cümlə sintaksisinin) öyrənilməsindən əvvəlki vəziyyətlə sonrakı vəziyyəti müqayisə etməkdən ibarət olmuşdur.

Məhz buna görə də imla yazıya qiymət verilməmiş və şagirdlərə qaytarılmamışdı. Lakin müəllim tərəfindən yoxlanılmış və buraxılan səhvlər, xüsusən durğu işarələri səhvləri hesaba alınmışdı. İmlanın nəticələri aşağıdakı şəkildə olmuşdu:

1) İmla yazı göstərdi ki, IV a sinfi (yoxlama sinfi) IV b sinfinə nisbətən daha hazırlıqlıdır.

2) IV b (eksperiment) sinfində eksperimentdən əvvəl, imla yazıda iştirak edən 22 şagird tərəfindən cəmi 159 durğu işarəsi səhvi buraxılmışdı ki, burada hər bir şagirdə 7,2 səhv düşürdü.

Eksperimentdən sonra həmin mətn üzrə IV b sinfində 20 şagird imla yazmışdı. Onlar cəmi 48 durğu işarəsi səhvinə yol vermişdilər ki, burada da hər şagirdə təxminən 2,4 səhv düşür.

3) IV a yoxlama sinfində eyni mətn üzrə eksperimentdən əvvəl imla yazmış 24 şagird cəmi 194 səhv buraxmışdı ki, hər şagirdə 8,1 səhv düşürdü.

4) Eksperimentdən sonra (nəzərdə tutulan mövzular keçildikdən sonra) IVa sinfində həmin imlanı yazan 21 şagird 57 səhv buraxmışdı ki, bu zaman hər şagirdə 2,7 səhv düşür.

Beləliklə, IVb (eksperiment) sinfində durğu işarələri səhvlərinin sayı 3 dəfə, IV a (yoxlama) sinfində isə 2,8 dəfə azalmışdı.

Yoxlamanın nəticəsi aşağıdakı şəkildə oldu:

| Siniflər | Mövzuların tədrisindən əvvəl | | | Mövzuların tədrisindən sonra | | |
|---|---|---|---|---|---|---|
| | Yazıda iştirak etmişdir | Buraxılan səhvlərin miqdarı | Bir şagirdə düşən səhv | Yazıda iştirak etmişdir | Buraxılan səhvlərin miqdarı | Bir şagirdə düşən səhv |
| Iva yoxlama sinfi | 24 nəfər | 194 səhv | 8,1 | 21 nəfər | 57 səhv | 2,7 |
| IVb eksperiment sinfi | 22 nəfər | 159 səhv | 7,2 | 20 nəfər | 48 səhv | 2,4 |

Eksperiment və yoxlama siniflərdə keçirilən yazı işləri nəqli, sual, əmr və nida cümlələrini şagirdlərin necə mənimsədiyini müəyyənləşdirmək məqsədilə aşağıdakı rabitəli mətn üzrə də imla aparılmış, şagirdlər mətni maqnitofon lent yazısında səslənən diktor oxusu əsasında yazmışlar.

Mətn belə idi:

Meşədə qoruq

Sevda atası ilə meşəyə gəzməyə getmişdi. Orada bənövşə, novruzgülü yenicə baş qaldırmışdı. Qıjıltı ilə axan çay meşəyə səs salmışdı.

Sevda meşədə kirpi görmüş, onu səbətə qoymuşdu.

Bələdçi onları qoruğa apardı. Burada marallar, ceyranlar, dağkeçiləri sürü ilə gəzirdilər. Sevda bunları görüb atasından soruşdu:

– Ata, bunları nə üçün tüfənglə vurmurlar?

Bələdçi cavab verdi:

– Qızım, meşədə ov etmək qadağandır. Axı bu heyvanlar meşələrin yaraşığıdır.

Həmin gün Sevda gəzintidən çox şən və razı qayıtdı.

Yoxlamanın nəticəsi aşağıdakı şəkildə oldu:

| Siniflər | Mövzuların tədrisindən əvvəl | | | Mövzuların tədrisindən sonra | | |
|---|---|---|---|---|---|---|
| | Yazıda iştirak etmişdir | Buraxılan səhvlərin miqdarı | bir şagirdə düşən səhv | Yazıda iştirak etmişdir | Buraxılan səhvlərin miqdarı | bir şagirdə düşən səhv |
| IVa yoxlama sinfi | 24 nəfər | 94 səhv | 3,5 | 24 nəfər | 60 səhv | 2,5 |
| IVb ekspe-riment sinfi | 22 nəfər | 68 səhv | 3,0 | 21 nəfər | 26 səhv | 1,2 |

Eksperimentin nəticələri göstərdi ki, IVb sinfində şagirdlərin müvəffəqiyyəti IVa sinfinə (yoxlama sinfi) görə xeyli yaxşı olmuşdur. Belə ki, nəzərdə tutulan mövzuların tədrisindən əvvəl aparılmış imla yazıda şagirdlərin buraxdıqları durğu işarəsi səhvləri hər iki sinifdə təxminən eyni idi. IVb (eksperiment) sinfində hər şagirdə 3 səhv düşürdüsə, IVa yoxlama sinfində isə hər şagirdə 3,5 səhv düşürdü. Mövzuların tədrisindən sonra IVb sinfində bu sahədə çox irəliləyiş olmuşdu. 9 nəfər şagird imlanı tam səhvsiz yazmışdı. Qalan şagirdlər isə cəmi 26 durğu işarəsi səhvi buraxmışdı ki, orta hesabla hər şagirdə 1,2 səhv düşür. IVa sinfində də irəliləyiş olmuşdu. Lakin yuxarıdakı cədvəldən göründüyü kimi, bu sinifdəki irəliləmə IVb sinfinə nisbətən xeyli zəif olmuşdur. Bu, məhz onun

nəticəsidir ki, müəllim IVb (eksperiment) sinfində mövzuların tədrisi zamanı ifadəli oxu vərdişlərinin inkişaf etdirilməsinə daha çox yer vermişdir. Buna görə də şagirdlər sadə cümlədə intonasiya və fasilələri düzgün müəyyənləşdirə bilmiş və bununla əlaqədar olaraq durğu işarələrindən yerli-yerində istifadə edə bilmişlər. Şagirdlərin yiyələndikləri bacarıq və vərdişləri müəyyənləşdirmək məqsədilə yoxlama və eksperiment siniflərində Hüseyn Arifin "İz açın, ay balalar!" şeirinin oxusu dinlənildi.

Şagirdlərin oxusu (hər sinifdən beş nəfər şagirdin oxusu) maqnitofon lentinə yazılıb dəfələrlə dinlənilərək təhlil olundu. Təhlil göstərdi ki, ibtidai siniflərdə sintaktik materialların intonasiya, ifadəli oxu ilə bağlı məsələlərinin əlavə işləmələrlə öyrədilməsi, bu sahədəki biliklərin oxu dərslərində bədii mətnlərin qiraəti zamanı tətbiq olunması nəticəsində eksperiment sinifdə yoxlama sinfi ilə müqayisədə şagirdlərin oxusu keyfiyyətcə yüksək olmuşdur. Bu üstünlük aşağıdakılardan ibarət idi:

a) nəqli, sual, əmr və nida cümlələri məzmunamüvafiq intonasiya ilə oxunurdu; b) oxu zamanı cümlə üzvləri, həmcins üzvlər arasında fasilələrə əməl olunurdu; c) məna yükünü daşıyan sözlər, ifadələr nəzərə çarpacaq tərzdə oxunurdu; ç) ədəbi tələffüz qaydalarına riayət olunurdu; d) oxunun tempi, sürəti normal idi.

Bundan əlavə, eksperimentə cəlb olunmuş yoxlama və eksperimental siniflərin II sinifdən başlayaraq IV sinfə qədərki ifadəli oxu bacarıqlarının inkişaf səviyyəsini müqayisəli şəkildə izləməyi planlaşdırdıq. Bu zaman nailiyyət göstəriciləri aşağı, orta və yuxarı olmaqla 3 hissəyə ayrıldı.

Siniflərin ifadəli oxu bacarıqlarının inkişaf göstəriciləri

| Səviyyələr | aşağı | | orta | | yuxarı | |
|---|---|---|---|---|---|---|
| Şagird sayı / Siniflər | Yoxlama 25 nəfər | Eksperimental 24 nəfər | Yoxlama 25 nəfər | Eksperimental 24 nəfər | Yoxlama 25 nəfər | Eksperimental 24 nəfər |
| II sinif | 8 n | 8 n | 12n | 10 n | 5 n | 6 n |
| %-lə | 32% | 33,3 | 48% | 41,6% | 20% | 25% |
| III sinif | 7 n | 6 n | 12 n | 9 n | 6 n | 9 n |
| %-lə | 28% | 25% | 48% | 37,5% | 24% | 37,5% |
| IV sinif | 6 n | 4 n | 13 | 8 n | 6 n | 12 n |
| %-lə | 24% | 16,6% | 52% | 33,3% | 24% | 50% |

Gördüyümüz kimi, yoxlama siniflərdə sintaksis elementlərin tədrisinin ənənəvi üsulla tədrisi şagirdlərin ifadəli oxu bacarıqlarının

inkişafı II sinifdə səviyyələr üzrə 8-12-5 (32%-48%-20%), III sinifdə 7-12-6 (28%-48%-24%), IV sinifdə 6-13-6 (24%-52%-24%) nisbətində olmuşdursa, eksperimental sinifdə bu göstəricilər II sinifdə 8-10-6 (33,3%-41,6%-25%), III sinifdə 6-9-9 (25%-37,5%-37,5%), IV sinifdə isə 4-8-12 (16,6%-33,3%-50%) nisbətində olmuşdur. Bu isə yoxlama siniflərlə müqayisədə eksperimental sinif şagirdlərinin ifadəli nitq bacarıqlarının yüksələn xətt üzrə nkişaf etdiyini göstərən mühüm göstəricilərdir.

Göründüyü kimi, sintaksisə dair ən zəruri sadə bilik və bacarıqların şagirdlərin ifadəli oxu qabiliyyətinin inkişafına müsbət təsiri IV siniflərdə daha aydın şəkildə üzə çıxır. Belə ki, yoxlama və eksperimental siniflərdə alınan nəticələrin nisbət payı faizlə hesblandıqda aşağıdakı kimi özünü göstərir. Şagirdlərin ifadəli oxu bacarıqlarının göstəriciləri yoxlama siniflərində aşağı, orta və yüksək səviyyələrdə müvafiq qaydada 24%-52%-24% nisbətində üzə çıxırsa, eksperimental siniflərdə 16,6% - 33,3%-50% nisbətində özünü göstərir.

Aparılmış tədqiqatda əldə edilmiş nəticələri aşağıdakı kimi ümumiləşdirmək olar:

İbtidai siniflərdə sintaksis elementlərinin tədrisi prosesində ifadəli oxu vərdişlərinin yaradılması və inkişafı üzrə aparılan tədqiqatın nəticələrini aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. İbtidai siniflərdə ana dili təliminin başlıca məqsədi şagirdlərdə hərtərəfli nitq mədəniyyətinin inkişafı məqsədilə dil fakt və hadisələri haqqında sadə biliklərə istinad etməklə düzgün oxu və yazı vərdişləri yaratmaqdır. Ana dili biliklərin açarıdır, vətəni sevmək və qorumaq, doğma dili sevmək və öyrənmək, bəşəri ideyalardan faydalanmaq prosesində dəyərli vasitədir. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi prosesində, xüsusən sintaktik anlayışların öyrədilməsi zamanı ifadəli oxu vərdişlərinin yaradılması və inkişaf etdirilməsi şagirdlərin Azərbaycan dilindən sistematik kursa hazırlanmasında əhəmiyyətli rol oynayır, onların dil öyrənməyə meyil və marağının güclənməsinə səbəb olur.

2. İbtidai siniflərdə şagirdlərə ifadəli oxu vərdişləri aşılayarkən yadda saxlamaq lazımdır ki, ifadəli oxu ilə danışıq nitqi (nağıletmə, söyləmə) arasında ümumi cəhətlər çoxdur. İfadəli oxu zamanı oxucu bədii əsərin məzmununu onun ideyasına uyğun olaraq, müəllifin fikrinə daha yaxın tərzdə verməyə çalışır. O, yazıçının dil və üslubunu, süjet və kompozisiya xüsusiyyətlərini saxlamaqla bərabər, əsərin dinləyicilərə yaxşı təsir bağışlaması üçün bütün ifadəli oxu vasitələrindən: intonasiya, mimika, hərəkət və s. istifadə edir. Mətndə ifadə olunan kədər, kinayə, istehza,

zarafat, qorxu, sevinc, səmimiyyət və s. kimi hissi hallar ifadəli oxu prosesində özünü əks etdirir.

3. İbtidai siniflərdə ifadəli oxu bacarığının aşılanması işində uğur qazanmaq üçün başlıca şərt müəllimin özünün bu keyfiyyətə sahib olmasıdır. Əsərdəki bədiilik və emosionallıq, oynaqlıq və obrazlılıq müəllimin ifadəli oxusundan asılıdır. Əlbəttə, ifadəli oxu ilə ifadəli danışıq arasında bir sıra fərqli cəhətləri də nəzərə almaq lazımdır. Əgər ifadəli oxu zamanı müəllim yalnız müəllifin söz və ifadələri, onun dili və üslubu ilə hərəkət etməli və fikri müəllifin dili ilə şagirdlərə çatdırmalıdırsa, ifadəli danışıq ilk növbədə şagirdlərin ifadəli oxu vərdişlərinin inkişafı üçün, onların dinləmə qabiliyyətinə sahib olmaları üçün lazımdır. Şagird cümlədə təkcə əsas sözü və ya fikri tapmaqla kifayətlənməməli, cümlədə iştirak edən başqa sözlərin də daşıdığı vəzifələri ayırd etməyi, cümlənin ayrı-ayrı sintaktik vahidləri, eləcə də cümlə üzvləri arasındakı fasilələri müəyyənləşdirməyi bacarmalıdır.

4. İbtidai siniflərdə sintaksis elementlərinin mənimsədilməsində ifadəli oxunun əsas mahiyyəti ondan ibarətdir ki, şagirdlərin şifahi nitqi söz, ifadə, qrammatik forma və sintaktik konstruksiyalarla zənginləşdirilsin, yeri gəldikdə onlar ünsiyyət prosesində istər monoloji, istərsə də dialoji nitq zamanı həmin dil vahidlərindən bacarıqla istifadə edə bilsinlər.

5. Çoxsaylı eksperimentdən əldə olunan nəticələrdən biri də ondan ibarətdir ki, ibtidai siniflərdə ifadəli oxu vərdişləri ilə əlaqədar aparılacaq işin məzmunu, hər şeydən əvvəl, öyrənilən sintaktik materialın xarakterindən asılıdır. Sintaktik elementlərin tədrisi ifadəli oxu bacarıqlarının inkişafı ilə birbaşa əlaqələnirildikdə, bu iş bütün siniflər üzrə sistemli və ardıcıl şəkildə aparıldıqda təlimin keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə nail olmaq mümkündür.

6. Sintaktik materialların tədrisi prosesində öyrədilməsi vacib olan ifadəli oxu vasitələrindən biri də məntiqi vurğu və nitq fasiləsidir. Düzgün ifadəli oxumaq üçün məntiqi vurğuya, eləcə də fasiləyə riayət edilməsi tələb olunur. Cümlədə məntiqi vurğunun məhz hansı sözün üzərinə düşməsini müəyyənləşdirmək, nitq fasilələrinə əməl etmək əsas fikrin dinləyiciyə daha düzgün və dəqiq çatdırılmasını təmin edir. Şagirdlər məntiqi vurğunun yerini şüurlu dərk edəndən sonra müvafiq intonasiyanı müəyyənləşdirə bilirlər və bu bacarığın ifadəli oxu üçün əhəmiyyəti böyükdür.

7. Sintaksisə dair bilik və bacarıqların inkişafı şagirdlərin düzgün, rəvan, şüurlu və ifadəli oxu bacarıqlarının inkişafına mühüm təsir göstərir.

Ona görə də dil qaydalarının mənimsədilməsi zamanı oxu materialları üzərində işə müntəzəm şəkildə yer verilməlidir. Çünki oxu materiallarının məzmununun, mahiyyətinin, məqsədinin, orada ifadə olunan hisslərin, duyğuların, başqa sözlə, ruhi halların incəliklərinə qədər meydana çıxmasına imkan yaradır. Oxu prosesində nəfəs, səs, diksiya və s. kimi texniki cəhətlər də nəzərə alınmalıdır. Şagirdlər oxu prosesində mətndəki rollara uyğun səslərini dəyişmək bacarığı da qazanırlar. Qiraət dərslərində oxunun temp və tembrindən asılı olaraq intonasiya rəngarəngliyi meydana çıxır. Bu zaman müəllimin vəzifələrindən biri şagirdlərə oxu materialının məzmun və formasına uyğun intonasiya variantları seçmək, məntiqi vurğuya əməl etmək bacarığı aşılamaqdan ibarətdir.

8. Sintaksis elementlərinin tədrisi zamanı oxu bacarığının yaradılması və inkişaf etdirilməsində təlimin texniki vasitələrinin də rolu böyükdür. İstər sintaktik mövzuların tədrisi, istərsə də oxu dərslərində verilmiş nəzəri biliklərin canlı nitqə, oxuya tətbiqi məqsədilə aparılan işlərdə texniki vasitələr – maqnitofon lent yazıları, qrafoproyektor, kompyuter texnologiyaları və sairədən istifadə ənənəvi metodlarla müqayisədə xeyli üstünlüklərə malikdir. Bu vasitələrin köməyi ilə şagirdlər canlı nitqi, nümunəvi oxunu, ədəbi tələffüzü eşidir, ekranlaşdırılmış mətnlərin yazılışı ilə oxunuşunu eşitmə və görmə yolu ilə müqayisə edir, onları maraqlandıran sintaktik quruluşların deyiliş tərzini, qaydalarını şüurlu olaraq dərk edir, mənimsəyir, nitqə, oxuya tətbiq edirlər.

9. İfadəli oxunun başlıca şərtlərindən biri də orfoepik qaydaların gözlənilməsidir. Bu qaydalar oxu və eləcə də danışığa ahəngdarlıq, təbiilik, rəvanlıq, səlislik, estetik gözəllik verir. Bu qaydalar əsasında oxu və danışıqda məzmun daha asan qavranılır, dərk olunur. Bu cəhət nəzərə alınaraq sintaktik materialların tədrisi prosesində ifadəli qiraət vərdişlərinin aşılanması üzrə iş aparılarkən orfoepik qaydaların mənimsənilməsinə və nitqdə tətbiq olunmasına xüsusi fikir verilməlidir. Unutmaq lazım deyil ki, ifadəli oxu orfoepik normaların gözlənildiyi düzgün oxu prosesində yarana və inkişaf edə bilər.

10. Demokratik quruluşa doğru irəlilədiyimiz, informasiyalarla zəngin elmi-texniki tərəqqinin son dərəcədə inkişaf etdiyi, kompyuterdən istifadənin geniş bir şəkildə həyata keçirildiyi indiki dövrdə ibtidai təhsilin fənn kurikulumunda nəzərdə tutulan bilik, bacarıq və vərdişlər sisteminin bir qədər genişləndirilməsi, onun şagirdlərin təfəkkür inkişafının müasir səviyyəsinə uyğunlaşdırılması məqsədəuyğun məsələ kimi qarşıya qoyulur. Bunu Azərbaycan dili tədrisinə, eləcə də sintaksisə aid materialların

öyrədilməsi işinə də aid etmək olar. Buna görə də fənn kurikulumu əsasında hazırlanmış ibtidai sinif Azərbaycan dili dərsliklərində sintaksis elementlərinin siniflər üzrə sadədən mürəkkəbə doğru sistemli veilməsinə böyük ehtiyac duyulur.

Tədqiqatın nəticəsi olaraq aşağıdakı təklifləri vermək istərdik:

1. Fənn kurikulumu əsasında hazırlanacaq yeni "Azərbaycan dili" dərsliklərində sintaksisə dair bilik və bacarıqların inkişafı məqsədilə artıq özünü təcrübədə doğrultmuş həmcins üzvlərlə bağlı sadə məlumatların dil qaydalarında verilməsi nəzərdə tutulsun.

2. Şagirdlərin ifadəli oxu bacarıqlarını inkişaf etdirmək məqsədilə nəsr əsərləri ilə müqayisədə şeir nümunələrinə hazırda istifadədə olan dərsliklərlə müqayisədə daha geniş yer verilməsinə xüsusi diqqət yetirilsin.

3. İbtidai sinif müəllimlərinə kömək məqsədilə bədii qiraət ustalarının ifasında lentə alınmış video və ya səs yazıları hazırlansın və məktəblərə paylanılsın.

Dissertasiyanın əsas məzmunu müəllifin **çap olunmuş aşağıdakı tezis və məqalələrində** öz əksini tapmışdır:


1. İbtidai siniflərdə ifadəli oxu üzrə işin məzmunu (sintaktik materiallara dair) // Pedaqoji Universitet Xəbərləri (Humanitar və təbiət elmləri seriyası), Bakı, 2004, № 3, s. 470-472

2. İfadəli oxunun əsas şərtləri haqqında // Pedaqoji Universitet Xəbərləri (Humanitar və təbiət elmləri seriyası), Bakı, 2005, № 1, s. 295-297

3. İbtidai siniflərdə sintaktik anlayışların verilməsi prosesində ədəbi tələffüz – orfoqrafik vərdişlərin formalaşdırılması sistemi //Azərbaycan Respublikası Təhsil Nazirliyi. Azərbaycan Dillər Universitetinin Elmi Xəbərləri, Bakı, 2006, № 2, s. 230-232

4. İfadəli oxu sintaksis üzrə bilik, bacarıq və vərdişlərin formalaşdırılmasında bir vasitə kimi // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı Slavyan Universiteti. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi, Bakı, 2006, № 2,s. 124-126

5. Ana dili dərslərində intonasiya üzrə işlər // Pedaqoji Universitet Xəbərləri. Bakı, 2007, № 6, s. 289-293

6. Логические ударение на уроках вразительного чтения в начальных классах //Педагогические науки. Москва, 2008 q., № 6 (33), s. 33-36

7. İbtidai siniflərdə ifadəli oxu dərslərində məntiqi vurğu //“Varlıq” jurnalı, Tehran, 2009, № 152, s. 34-36.
8. İfadəli oxu və ədəbi tələffüz / Azərbaycan Dillər Universitetinin Doktorantların və gənc tədqiqatçıların XIV Respublika elmi konfransının materialları. 2010-cu il, s.257.
9. İbtidai siniflərdə nəqli cümlənin tədrisi prosesində şagirdlərdə ifadəli oxu bacarığının formalaşdırılması / Qafqaz Universitetinin “Gənc tədqiqatçıların Ümumrespublika elmi konfransı. 2010-cu il, s.321.
10. İbtidai siniflərdə nəqli cümlənin tədrisi // BDU, Gənc tədqiqatçılar və doktorantların XV elmi konfransının materialları. 2011, s.155-157.
11. Məntiqi vurğu ifadəli oxu vasitəsi kimi /Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu. “Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri” mövzusunda Respublika Elmi Konfransı, Bakı, 28 iyun, 2012, s.130-131.
12. “İfadəli oxu və ibtidai siniflər üçün son dövr Azərbaycan dili proqramlarında onun yeri” // Ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş “Müəllim hazırlama siyasəti və problemləri” Beynəlxalq Simpozium 3-4 may 2013-cü il, Bakı, s. 182.

**Махира Молуд кызы Абдуллаева**

## Пути развития навыков выразительного чтения в процессе изучения элементов синтаксиса в начальных классах

### Резюме

Речевая деятельность азербайджанского языка предполагает усвоение самых важных языковых фактов и явлений во взаимосвязи с чтением, письмом, заслушиванием – пониманием и разговором, составляющих основу обучения. Овладение учащимися начальных классов навыками правильного, плавного, осознанного, в том числе и выразительного чтения, зависит именно от уровня организации этих связей. В этом контексте овладевание навыками выразительного чтения при изучении элементов синтаксиса привлекает внимание как наиболее актуальная проблема.

Диссертация состоит из введения двух глав, охватывающих семь подглав, выводов и списка использованной литературы.

В первой главе названной «Теоретико-методические основы проблемы привития навыков выразительного чтения в процессе преподавания элементов синтаксиса в начальных классах» раскрывается сущность проблемы, анализируется степень её изученности в методической литературе, исследуется предусматривание проблемы в программах и учебниках и уточняется реальное состояние в школьной практике.

Во второй главе, озаглавленной «Пути и возможности создания и развития умений и навыков выразительного чтения в процессе преподавания материалов, связанных с синтаксисом в начальных классах» комментируются лингвистические показатели, обеспечивающие выразительное чтение, путем уточнения синтаксических возможностей в начальных классах выявляются пути, способствующие развитию умений по выразительному чтению и посредством эксперимента подтверждается их эффективность.

В заключении обобщаются, вытекающие из исследования выводы, выдвигаются соответствующие рекомендации с целью обогащения школьной практики.

**Mahira Molud kizi Abdullayeva**

## The ways of development of the habits of expressive reading in the teaching process of syntax elements in primary classes


### Summary

In this research work the urgency, subject and purpose of expressive reading is explained, its scientific innovation and practical importance has been reflected in getting results.

The owning of right, flat, conscious, including the habits of expressive reading of pupils in primary classes depends of this connection in which level. On approaching in this context owning the habits of expressive reading when teaching syntax elements draws attention as a guite urgent problem.

The thesis consists of introduction, two chapters surrounding seven half chapters, result and a list of used literature.

The urgency of the theme well-grounded in the introduction. The introduction substantiates the actuality of the topic, provides information about the object, history of study, theoretical and practical importance of the subject, objectives, scientific innovation, purpose and etc.

The first chapter of the thesis called the methodical bases of the teaching problem of habits of expressive reading in the teaching process of syntax elements in primary classes has been explained the esseuce of the problem and volued the level of investigating in methodical literature, and also has been taught the taking into account in programs and text – books, defined the real situation in school experiment.

The second chapter of the thesis called “The creating and opportunity and ways of developing of ability and habits of expressive reading in teaching process, materials connected with syntax in primary classes linguistic indicators have been comented providing expressive reading opportunities have been defined precisely about suntax on primary classes, the ways serving the developmet of ability of expressive reading have been revealed, the efficiency has been proved with the help of experiment.

At the end of results coming forward from the investigation has been generalized corresponding thoughts has been proposed with the purpose of enriching of the school experience.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**МАХИРА МОЛУД КЫЗЫ АБДУЛЛАЕВА**

**58 01.01 –** Теория и методика обучения и воспитания
(методика преподавания Азербайджанского языка)

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени доктора
философии по педагогике

**Б А К У - 2013**